# Ülkər

**Dilsuz MUSA**



## PROLOQ

Ülkər anasının bircə qızıydı,
Göylərdə parlayan dan ulduzuydu.
Çatma qaşlarının heç tayı yoxdu,
Qara kirpikləri peykanlı oxdu.
Topuğa qədərdi qıvrım telləri,
İpəkdən zərifdi incə əlləri.
Bir cüt qara şanı - qara gözləri,
Bir canlı həyatdı bu gözəl pəri.
Ətirli güllərtək rayihədardı,
Məsum gülüşləri nurlu bahardı.
Gözəlliklə birgə xasiyyətdə də,
Böyüyə-kiçiyə o, hörmətdə də.
Hər yanda barmaqla göstərilərdi,
Hamı övladı tək onu sevərdi.
Fəqət aylar keçib illər ötdükcə
Ülkər yaşa dolub hey böyüdükcə
Doğrulda büildimi bu etimadı?
Saxlaya bildimi o təmiz adı?
Əsla bacarmadı Ülkər bunları,
Sevdi yeni-yeni dar modaları.
"Mədəni" davrandı, "mədəni" gəzdi,
Doğma anasından əlini üzdü.
Dedi: "Heç kəndliylə dostluğum tutar?
Burda ki, zövqümü oxşayanlar var.
Nəyimə Sazımdır yamaqlı kəndli,
Gecə-gündüz əli çomaqlı kəndli.
Bəli, bəyənmədi kəndlini Ülkər,
Ona əziz oldu hər şeydən şəhər.
Cilddən cildə girdi... Düzünü desək
Dəyişdi dəyişən Buqəlamun tək.
Unutdu namusu, unutdu andı,
Kəndə yüz xəbərlə gəldi dostları...

## ÜLKƏR DƏRSƏ TƏLƏSİR

Köksünə sığmırdı fərəhdən ürək,
Açılırdı ən xoş səhəri bu gün.
Ana sevinirdi körpə uşaq tək,
Dərsə gedəcəkdi Ülkəri bu gün.
Deyəsən sabahdı...Ulduzlar sönür,
O isə ayrılmır düşüncələrdən.
Ülkəri gözündə bir dağa dönür,
Nurlu yol diləyir bu al səhərdən.
Günəş saçlarını darayan zaman,
Al rəngə boyanar, yanar üfüqlər.
Adət etdiyi tək bu gün də erkən
Şirin yuxusundan oyanır Ülkər.
Əl-üzün yuyaraq getmək istəyir,
Təzə paltarını geyib sevincək.
Anası duraraq üz tutub deyir:
- Bəs qızım, nə əcəb yemədin çörək?
Hara tələsirsən bu tezliklə sən,
Hələ ki, vaxtına saat yarım var.
Çörək də yadına düşmür sevincdən,
Heç ac qarına da oxumaq olar?

Bağrına basaraq, sonra qızının
Öpür gözlərindən, öpür doyunca.
Ağ lent də bağlayır saçına onun,
Deyir nə dərdim var sən böyüyüncə...

Anası onunçün gör nələr almış, -
Rəngli karandaşlar, rəngli kitablar
Ülkər də meylini bunlara salmış,
Burda özgə həyat, özgə duyğu var.

Burda işıqlanır qaranlıq yollar,
Elm ziyası ilə isinir hər yan.
Dili ola-ola keçmişim kimi,
Dilsiz yaşamayır bir daha insan.

Baxdıqca burdakı şəkillərə o,
Nələr arzulayır, nələr diləyir.
Ömründə ilk dəfə bircə kərə o,
Quş olub göylərə uçmaq istəyir.

Bəli, çox dilşaddır Ülkərim bu gün,
Yaxşı duymasa da həyatı dərin.
Hələlik şəkildir həyat onunçün,
Sirrini bilməyir mavi göylərin.

Budur çantasını alaraq ələ
Ülkər qaça-qaça dərsə tələsir.
Anası sönməyən bir ümid ilə
Onun arxasınca su səpələyir.

Şirin xəyallara daldıqca hər an,
Bahar tək gül açır arzu, diləyi.
Qız gedən yollara baxdıqca hər an,
Köksündə dil açır ana ürəyi:

Sən dərsə tələsirsən,
A nazlı, şirin bala.
İlkin qədəm basırsan,
Nur çeşməli bir yola.
Sənin yeddi yaşın var,
Demə pis yaddaşın var.
Şəkil çəkmək istəsən
Hər cür karandaşın var.
Hələ bəzəkli çantan
Kitabların bir yana.
Oxu, hər gün "əla" al,
Baxıb şad olsun ana.
O məsum gülüşlərin
Sanki günəşli bahar.
Kim bilir, qəlb evində
Neçə şirin arzu var.
Sən azad Vətənimin
Sevincisən, yazısan.
Parıldayıb nur saçan
Sabahın ulduzusan!
Gözün aydın olsun, ay Fatma xala,
Ülkər qədəm basır ilkin məktəbə.
Qoy onun bu yolu uğurlu olsun,
Günəştək işıqlı, hey nurlu olsun.
Gün olsun, oxuyub kamala çatsın,
Hər arzu, diləyə, amala çatsın.
Gün olsun "Ülkər"ə ucalsın Ülkər,
Əngin səmalara yol salsın Ülkər.
Gün olsun toyunda əl-ələ verək,
Səni də qucağı nəvəli görək
Zaman çox tez verdi ölüm hökmünü
Atası görmədi bu əziz günü.
Nifrət müharibə törədənlərə
Nifrət qan çanağı Adolf Hitlerə
Zəlitək neçəsin qanın sordu o,
Neçə ürəklərə yara vurdu o.
Neçə könülləri giryanlı qoydu,
Neçə gözəlləri nişanlı qoydu.
Fəqət özü oldu qəmin möhtacı,
Başında çatladı öz taxtı-tacı.
Bir daha görməyək vaxtsız ölüm, qan,
Şirin arzularla yaşasın insan.
Sənin Ülkərin də xoş bahar olsun,
Nəğməsi ən lətif duyğular olsun.
Təki sağlıq olsun... Unudaq qəmi,
Deyərək təsəlli verirdi hamı.
Ərindən ürəyi dərdli anaya,
Həlim təbiətli Fatma xalaya.

## MƏKTƏB İLLƏRİ

Çox da böyük deyil Kolam kəndi,
İnsanları sadə, zəhmətsevərdi.
El-oba hər zaman ona güvəndi,
Oğullar qoynunda ər oğlu ərdi.
Sönməz həyat eşqi, mərdlik, cəsarət,
Boyuna biçilib sanki bu kəndin.
Ərlərə xas olan dostluq, səxavət
Onunla yaşayır, ucalır hər gün.
Hamı bir-birinə ülfət bağlayıb,
Burda namərdlərin yeri görünmür.
Cavanlar bu yerdə coşub, çağlayıb,
Nakəsin, nadanın biri görünmür.

Burda ağsaqqalın, ağbirçəyin də
Sözləri keçərli, sözləri qəti.
Bəlkə elə burda, bu yer üzündə,
Onlara qoyurlar ali hörməti.

Hamıya gərəkdir bir meyar kimi,
Ağsaqqal kəlməsi, ağbirçək sözü.
Onlardır bu elin böyük hakimi
Böyüklər heç zaman çaşdırmaz bizi.

Sözündə dağların sanbalı vardı,
Babaların sözü möhürdən üstün.
Babalar söz ilə dağ oynadardı
Sözündə qətidi, sözündə kəskin.

Zamanın od saçan üfüqlərində
Qovrulub yanırdı yer üzü indi.
Bir qorxu yaşardı bəbəklərində
Bu qorxu sarırdı şəhəri, kəndi.

Dondu dodaqlarda dava kəlməsi,
Yer, göy od tuturdu, söndürmək çətin.
Sibir, Taqanroqdan gəlirdi səsi,
Əsgərlər döyüşür hər yerdə mətin.

İldırım sürətli "Barbarossa"sı,
Hücuma keçmişdi Adolf Hitlerin.
Dünyanın ən böyük taun yuvası
Böyük balasıydı indi bəşərin...

Hamar olmayıbdı məktəb yolları,
Bu yolda cəsarət, inam gərəkdi.
Qovur bir-birini ömrün illəri,
İllərin qoynunda ilham gərəkdi.

Mənasız keçmədi bircə günü də,
Kitablar, dəftərlər ona yar oldu.
O təhsil aldığı doğma məktəbdə,
Əsas elmlərdən xəbərdar oldu.

O qanlı davanın sərt sınağında,
Bir parça çörəyə həsrət də qaldı.
Hərdən ac qalsa da, susuz qalsa da,
Meylini kitaba, dəftərə saldı.

Gecə də, gündüz də çalışdı müdam,
Birinci adını qazanmaq üçün.
Kömək diləmədi dostdan, tanışdan,
Özü öz odunda qızınmaq üçün.

Beləcə yaşadı, böyüdü Ülkər,
Saatını, gününü bölə-bölə o.
Böyüklərdən aldı öyüdü Ülkər,
Əridi bu yolda gilə-gilə o.

Fəqət zəkasına heyran kəsildi,
Bütün məktəb əhli, bütün kənd əhli.
Ülkər ən yaxşıda birinci idi,
Bax belə doğrultdu o doğma eli.

Həftələr ayların əlindən düşdü,
Sonuncu sinifdə son imtahandı.
İllərə nə var ki, illər ötüşdü,
Yamanca kövrəlib Ülkər nədəndi.

Sonuncu imtahan... Bu da ki, "əla",
Məktəbi "beş"lər!ə başa vurdu o.
Məktəbdə yenə də kaş şagird ola
Bu kitab, dəftərdə nələr gördü o.

İlk zənglə başlayan məktəb həyatı,
Son zəngə səslədi sonuncuları.
Elə bil məktəbdə toydu, büsatdı,
Qınamaq çətindi onuncuları.

Qaldı daş divarlar, siniflər altda,
Bir ömrün mənalı, şirin çağları.
Yenə də varsınız siz bu həyatda,
Ey məktəb illəri, məktəb illəri!

Hərə bir sənətin adını tutar,
Həkimlik Ülkərin ilkin arzusu.
Oxuyar gecəni gündüzə qatar,
Sanki gözlərindən qaçar yuxusu.

Gözləri yaşarar Fatma xalanın,
Bu sevinc yaşları yaraşıq ona.
Arzusu gül açır Ülkər balanın,
Bu yolda kainat gur işıq ona.

Son zəng düymələdi yaxasını da,
Yaşadı bu zəngin sədasında o.
Nə qədər xoşbəxtdir insan dünyada
Ucaldı ucalar sırasında o.

Məktəb illərini daim xatırlar,
Süzülər qəlbinə bir çeşmə kimi.
Orda necə kövrək xatirə yaşar,
Sahilsiz dənizdə sanki bir gəmi.

Unutmaq olarmı şirin anları,
Bu ülfət, bu dostluq necə də təmiz.
Sevdin qəlb dolusu sevdin onları,
Nə qədər kövrəyik bu həyatda biz.

Məktəb illərinin mənası dərin,
Biliyə, savada qane olmadıq.
Əsl insan olduq, unutmaq çətin,
Kiməsə bu işdə mane olmadıq.

Qoynunda boy atdıq bir övlad kimi,
Beşdaşın çınqıllı dərədə qaldı.
Dəftərlər, kitablar aldı könlünü,
O illər qoynunda belə ucaldı.

Dərs aldıq, düz on il ana qoynunda,
Bu da pənahımız, bu da bir mətləb:
Əlvida! Demirik bu son anda da,
Hələlik! Deyirik ey doğma məktəb!

## BAKI, TƏLƏBƏ DÜNYASI

Xəzəri qoynuna alıbdı Bakı,
Üfüqdə Günəşin qürub çağıdı.
Bütün olanlardan halıdı Bakı,
Xəzər sinəsində əlvan xalidi.
Xəzərin suları sakitdi bu gün,
Dalğalar sakitcə danışıb, dinir.
Olduqca qəribə həyatdı bu gün,
Qoynunda nə qədər insan sevinir.
Xəzərsiz Bakı da heç Bakı deyil,
Açıb ağuşunu külək şəhəri.
Bu xəbər çaşdırdı səni, ey könül,
Alıbdır qoynuna bü gün Ülkəri.

Kiçik bir otaqda dörd nəfərdilər,
Arzular, ümidlər göyərir indi.
O məktəb dostları danışır nələr,
Ülkər də bu işə qəlbən sevindi.
Laləsi, Nərgizi bir bəzək oldu,
Ətri könül açdı tər Bənövşənin.
Bu kiçicik otaq ətirlə doldu,
Ətirə bələnsin gül ömrün sənin.
Kəndin bəxtiyarı bu dörd cavan qız,
Kəndin havasını gətirdi bura.
Bu təzə komada deyildi yalqız
Ülkər fəxr edirdi baxıb onlara.
İmtahan gününə az vaxt qalırdı,
Hazırlıq gedirdi gecə-gündüzlü.
Günlər ötüşdükcə vaxt azalırdı,
Səhər açılırdı lap dirigözlü.
İmtahan ən böyük bir yük olubdur,
Havası qorxudub Napolyonu da.
İmtahan çoxunu taxtdan salıbdı,
Şayələr dolaşır dildə, ağızda.
İmtahan sözündə qorxu, vahimə,
Bəzən bildiyini söyləmək olmur.
İmtahan verirsən yaxşı bax kimə,
Dilin-dolaşdısa neyləmək olur?
İmtahan sabahın cavabdehliyi,
Bu günün sabaha açılan qolu.
İmtahan mənafe, mətləb birliyi,
İmtahan taleyin yoxuşlu yolu.

Bu yolun yoxuşu yorar çoxunu,
Tab etməz bu yolda çovğun, borana.
İmtahan gündə atın qorxunu
Bəlkə çıxasınız barı bir yana...
Ülkər imtahanı verdi, qurtardı,
Tələbə adına layiq göründü.

*(Davamı var)*